"Balakən Azərbaycanın çox gözəl guşəsidir" İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 07 (14) ✦ 31 iyul 2025-ci il

# Azərbaycanın media nümayəndələrinə

Hörmətli media nümayəndələri!
Əziz jurnalistlər!

Sizi əlamətdar yubiley - Azərbaycan milli mətbuatının yaranmasının 150-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1875-ci il iyulun 22-də böyük maarifçi, naşir Həsən bəy Zərdabi tərəfindən qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü - "Əkinçi" qəzetinin nəşrə başlaması ilə Azərbaycan milli mətbuatının əsası qoyuldu. Həmin dövrdə bütün Qafqazda böyük əks-səda doğuran bu mühüm tarixi hadisə Azərbaycan maarifçilik hərəkatının inkişafına, milli oyanışa, milli özünüdərkin və düşüncə azadlığının formalaşmasına təkan vermiş, mütərəqqi jurnalist, publisist və ziyalı nəslin yetişməsində əhəmiyyətli rol oynamışdır.



Azərbaycan milli mətbuatı bütün dövrlərdə cəmiyyəti düşündürən problemləri, zəmanənin qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində, Azərbaycan ədəbi dilinin inkişafında müstəsna xidmətlər göstərmiş, azadlıq və müstəqillik kimi xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermişdir.

Keçən əsrin sonlarında müstəqillik qazanmış Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində cəmiyyət həyatının bütün sahələrində olduğu kimi milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. Həmin dövrdə media sahəsində həyata keçirilmiş köklü islahatların nəticəsi kimi medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmış, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr və senzura aradan qaldırılmışdır. Bütün bunlar Azərbaycan mediasının sürətli inkişafına təkan vermiş və onun yeni mərhələyə qədəm qoymasını təmin etmişdir.

Azərbaycan mətbuatının müstəqilliyi cəmiyyətimizin inkişafının başlıca şərtlərindən biridir. Müstəqil, güclü, günümüzün tələblərinə cavab verən, xalqın maraqlarını rəhbər tutan mətbuatın inkişafı və onun sərbəst fəaliyyəti üçün zəruri şəraitin yaradılması hər zaman dövlətimizin qarşısında duran prioritet vəzifələrdən olmuşdur. Bu istiqamətdə daim sistemli iş aparılmış, ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını, media fəaliyyətinin möhkəmləndirilməsini, rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını hədəfləyən normativ-hüquqi baza yaradılmış, informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə əsaslı islahatlar həyata keçirilmişdir.

Bu gün artıq fəxrlə deyə bilərik ki, bizim milli mətbuat bir əsr yarım ərzində şərəfli və mütərəqqi inkişaf yolu keçmişdir. Əlamətdar haldır ki, budəfəki yubileyi milli mətbuatımız artıq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda qeyd edir.

Azərbaycan mediası 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı dövründə hadisələrin operativ işıqlandırılmasını təmin etmək üçün həm ön, həm də arxa cəbhədə fədakarlıqla və əzmlə çalışmışdır. Ölkəmiz və xalqımız üçün bu tarixi və taleyüklü mərhələdə Azərbaycan mediası cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında böyük rol oynamış, haqq səsimizin və mövqeyimizin beynəlxalq ictimaiyyətə çatdırılmasında yüksək peşəkarlıq, əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirmişdir. Heç şübhəsiz ki, informasiya məkanında qazandığımız zəfər döyüş meydanında qazandığımız və bu il 5-ci ildönümünü qeyd edəcəyimiz şanlı Zəfərimizin ayrılmaz parçasıdır.

Torpaqlarımızın işğalı zamanı cəbhə bölgəsində və postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərimizdə vəzifə borcunu yerinə yetirərkən şəhid olmuş media nümayəndələrimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirəm. Onların şücaəti və qəhrəmanlığı heç zaman unudulmayacaq.

Bu gün Azərbaycan Respublikası tam müstəqil xarici siyasət yürüdən, regionun siyasi və iqtisadi mərkəzi statusunu qazanmış, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş güclü dövlətdir. Ölkəmizin mövcud inkişaf dinamikası Azərbaycan mediasının da ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir.

Qarşıdan gələn dövrdə milli mətbuatımızın qlobal informasiya məkanında yerinin daha da möhkəmlənməsini təmin etmək məqsədilə media savadlılığının yüksəldilməsi, ən qabaqcıl kommunikasiya texnologiyalarının tətbiqi, effektiv və çevik kommunikasiyanın həyata keçirilməsi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellektin tətbiqi, dezinformasiya və saxta xəbərlərlə mübarizə kimi amillər aparıcı rol oynayacaqdır.

Dünyada yeni media landşaftının bərqərar olduğu mürəkkəb rəqabət mühitində fəaliyyət göstərən milli mətbuatımızın üzərinə xüsusi məsuliyyət düşür. Belə ki, qlobal informasiya məkanının sürətlə transformasiya olunduğu, beynəlxalq təbliğat fəaliyyətinin ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi, süni intellektin imkanlarının genişləndiyi, hibrid təhdidlərin və "deepfake"lərin geniş vüsət aldığı müasir dövrdə bizim mediamız peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə əməl edərək, söz və məlumat azadlığından sui-istifadənin qarşısını qətiyyətlə almalı, Azərbaycanın milli maraqlarını və mənafeyini hər şeydən uca tutmalıdır.

Müasir media mədəniyyətinin formalaşdırılmasında məsuliyyətli, yaradıcı, intellektual və peşəkar jurnalistikanın aparıcı rolu danılmazdır. Əminəm ki, Azərbaycan mediası bundan sonra da cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması, müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Sizi bir daha bu əlamətdar ildönümü münasibətilə ürəkdən təbrik edir, milli mətbuatımızın şanlı ənənələrinin yaşadılması işində uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 iyul 2025-ci il**

# 22 İyul Milli Mətbuat günüdür









İyulun 22-də Bakı şəhəri, Ağşəhərdə yerləşən "Marriott Bulvar" otelində Medianın İnkişafı Agentliyi tərəfindən Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə tədbir keçirilirdi. Azərbaycan Milli Mətbuatın 150 illiyinə həsr olunmuş tədbirdə Prezidentin köməkçisi Hikmət Hacıyev Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin təbrikini iştirakçılara çatdıraraq Milli Mətbuatının 150 illiyinə təsis edilmiş yubiley medalları ilə təltif olunmuş bir qrup mediya nümayəndələrinə medalları təqdim etdi. Rəsmi hissədən sonra tədbir bədii hissəsi ilə davam etdi. Abırlı,samballı xalq artistlərindən ibarət rəqs, mahnı, muğam, şeir, "Natiq" ritm qrupu və digər dəyərli sənətkarlar mediya nümayəndələrini, mətbuat işçilərini təbrik üçün bədii hissədə iştirak etdilər, öz ifalarıyla bu sevinci bizimlə bölüşdülər. "Yeni Balakən" qəzetinin redaktoru olaraq mən də bu möhtəşəm tədbirə dəvət almışdım və tədbirdə iştirak etdim. Tədbirdə çoxdan görmədiyim dostlarımı gördüm, uzun illərin Facebook dostum, əməkdar jurnalist,"Xalq qəzetinin" jurnalisti əslən Qəbələdən olan hörmətlimiz İttifaq Mirzəbəyli ilə görüşdüm. Belə dəyərli insanlarla görüş, onların əhatəsində Milli Mətbuatımızın 150 illiyinin möhtəşəm tədbiri daha da gözəl, mənalı keçdi.

İyulun 22-də Balakəndə də Balakən RİH-in başçısı İslam Rzayev mətbuat nümayəndələrini dəvət edərək tədbir keçirdi, Azərbaycan Milli Mətbuatının 150 yaşını media nümayəndələri ilə birlikdə qeyd etdi. Xoş hal idi ki, tədbirdə bizim əzizimiz, Azərbaycanın sevimlisi, "Xalq qəzetinin" bölgə müxbiri İlqar Həsənov, uzun illər radioda çalışmış, indi isə təqaüddə olan Zümrüd Dibirova da iştirak edirdilər.

Xüsusi olaraq Milli Məclisin deputatı, hörmətli Nəsib müəllimə təşəkkür edirəm, bizi hər iki mənada Milli Mətbuatımızın 150 illiyi münasibətilə həm sosial şəbəkə hesabından, həm də şəxsən messengerdən təbrik etdi. Bu təbriklərə qoşulan bir çox əzizlərimə, dostlarıma da minnətdarlığımı bildirirəm. Çox istərdim onların adlarını, vəzifələrini də qeyd edim amma inanın bu qəzet səhifələri belə yetməz.

**Heydər Əliyev: Mətbuat dövlətlə xalq arasında canlı sinirdir.**

**Ramazan Abal**

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Balakəndə vətəndaş qəbulu



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Balakən rayonunda vətəndaşları qəbul edib.

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin da?üstü parkdakı abidəsi ziyarət olunaraq, xatirəsi ehtiramla yad edilib.

11 iyul 2025-ci il tarixində keçirilən qəbul zamanı Balakən və Zaqatala rayon sakinlərinin müraciətləri dinlənilib.

Müraciətlər arasında uşaqla ünsiyyət, sosial dəstəyin göstərilməsi, işlə təmin olunma, ailələr arasında yaranan problemin həllinə köməklik göstərilməsi, mənzil şəraitinin yaxşılaşdırılması, uşaqların müalicəsi, əlillik statusunun təyin olunması, ailədaxili münasibətlər və digər məsələlər yer alıb.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən keçirilib.



**Yeni Balakən**

# Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var



Azərbaycan artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə ev sahibliyi edir.

Əvvəlki iki Zirvə görüşü 2006-cı və 2012-ci illərdə paytaxt Bakida keçirilmişdi. İqtisadi Əməkdaşlıq Təşkilatı 1985-ci ildə üç ölkənin - İran, Pakistan və Türkiyənin Təşəbbüsü ilə yaradılıb.Təşkilatın əsas məqsədi redional iqtisadi əməkdaşlığı genişləndirmək və nəqliyyat infrastrukturunu dərinləşdirmək idi.

Sovet İttifaqı dağılandan sonra İƏT-in əhatə dairəsi xeyli genişləndi. Mərkəzi Asiya ölkələri - Qazaxıstan, Qirğızistan, Özbəkistan və Tacikistan bu təşkilata üzv olublar. Qafqaz regionundan Azərbaycan 1992-ci ildən İƏT-ın üzvləri sırasına daxildir. Bu genişlənmə təşkilata siyasi baxımdan yeni imkanlar qazandırdı. Azərbaycan bu proseslərdə fəal iştirakla regionun ən strateji coğrafi mövqedə yerləşən ölkə kimi ön plana cıxdı. Ən əsası isə budur ki, Azərbaycan bu təşkilatı yalnız iqtisadi funksiyaları yerinə yetirən bir qurum kimi görmür.

Bakı üçün bu qrum ölkənin öz siyasi modelini, sabitlik yanaşmasını, regional baxışını üzv ölkələrə ötürmək üçün yaxşı bir platformadır. Artıq Azərbaycanın təşəbbüsü ilə bir çox beynəlxalq tədbirlər keçirilir.

Ölkəmizin təşəbbüsü ilə İƏT çərçivəsində indiyədək bir sıra mühüm layihələr həyata keçirilib. Bakı şəhərində təşkilatın bir neçə yüksək səviyyəli sammitinə və nazirlər görüşünə ev sahibliyi gerçəkləşdirilərək respublikamızın regional əməkdaşlıqda fəal mövqeyi nümayiş etdirilib.

Azərbaycan zəngin enerji resurslarına malik ölkə olaraq İƏT məkanında enerji təhlükəsizliyinin təminində mühüm tərəfdaşdır. Neft, qaz və bərpa olunan enerji sahəsində həyata keçirilən layihələr təşkilatın üzv dövlətləri ilə enerji əməkdaşlığını gücləndirir. Azərbaycan qazının TANAP və TAP boru kəmərləri ilə Avropaya nəql edilməsi İƏT-in üzvü olan Türkiyə və digər region ölkələri üçün enerji təchizatında alternativ marşrutların açılmasına şərait yaradır.

Bununla yanaşı, ölkəmiz bərpa olunan enerji sahəsində də təcrübəsini paylaşaraq "yaşıl" enerji təşəbbüslərinin dəstəklənməsində fəal iştirak edir. İƏT-in dayanıqlı inkişaf gündəliyinə uyğun olaraq Azərbaycan ekologiya, iqlim dəyişikliyi və rəqəmsal transformasiya sahəsində də birgə təşəbbüsləri dəstəkləyir.

"Yaşıl enerji zonası" elan olunan Qarabağ və Şərqi Zəngəzur bölgələri bu baxımdan potensial əməkdaşlıq məkanları kimi diqqət çəkir. Bundan əlavə, rəqəmsallaşma və innovasiya sahəsində Azərbaycanın təcrübəsi təşkilatın digər üzvləri üçün nümunəvi model rolunu oynaya bilər. Elektron hökumət, vergi islahatları və biznes mühiti üzrə modern yanaşmalar üzv dövlətlərlə paylaşılaraq qarşılıqlı öyrənməyə zəmin yaradır.

Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var. Ermənistanın işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. Şuşada 2023-cü ildə ECO-nun Nazirlər Şurasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşü.

Bu gün isə ECO-nun Zirvə görüşü Xankəndidə, yeni inşa edilmiş Konqres Mərkəzində keçirilir. İyulun 4-də Xankəndi şəhərində keçirilən İƏT-in 17-ci Zirvə Görüşündə yuxarıda vurğulanan məsələlər ətrafında geniş bəhs olunub.

Prezident İlham Əliyevin çıxışında Azərbaycanın İƏT-in işində həmişə fəal iştirak etdiyi, bu təşkilata üzv ölkələrlə əlaqələrin inkişafının daim diqqət mərkəzində saxlanıldığı, keçən il tarixdə ilk dəfə olaraq qurum məkanında COP29 konfransının reallaşdırıldığı, habelə həmin toplantıda inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılmasının razılaşdırıldığı, İtki və Zərər Fondunun işlək vəziyyətə gətirildiyi diqqətə çatdırılıb.

**Deputat Nəsib Məhəməliyev**
**Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü**

# Bəzi görüşlər unudulmur



Bəzən elə mövzular, tədbirlər olur ki,onlar barəsindəki yazıya ikinci dəfə də toxunursan və ya o yazıya davam edirsən.Keçən ay Yeni Şərif kəndində "Narkomaniya və narkotik maddələrin dövriyyəsinə qarşı mübarizə" tədbirləri çərçivəsində Balakən RİH-in keçirmiş olduğu maarifləndirici tədbirlərdən "Külə dönmüş arzular" tamaşası kənddə əks-səda doğurmuş, izləyənlərin yaddaşında dərin izlər buraxıb ki, kənd sakinlərinin, məktəb kollektivinin, digər rəsmi qurumların nümayəndələri redaksiyaya zəng vuraraq məmnuniyyətini bildirir, qəzet vasitəsilə təşkilatçıya, özəlliklə Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Balakən rayon komissiyasının sədri Turan Dibirova, teatr kollektivinə, tamaşada rol gedən aktyorlara, tamaşanın rejissoruna təşəkkürlərini çatdırmağı və imkan olduqca kənddə belə görüşləri, tədbirləri tez-tez təşkil edmələrini xahiş edirdilər.

Həqiqətən də "Külə dönmüş arzular" tamaşasının mövzusu aktuallığını bu gün də saxlayır, cəmiyyətdə narkotikin fəsadlarından doğan acı reallığı, gerçəkləri əks etdirir. Gənc olmalarına baxmayaraq tamaşanın rollarını ifa edən aktyorların professionalığı, rejissor işi, mövzunun zamanın tələbinə uyğunluğu bu gün rayona gəlib 10 manata bilet satıb tamaşa göstərən bəzi teatrların işindən qat-qat keyfiyyətli, yüksək idi. Təbii ki, belə gözəlliyi ərsəyə gətirənlər, onu kəndə çatdıranlar unudulmadı, əhali tərəfindən böyük mənmunluqla qarşılandığı kimi, təşəkkür etdilər, yenə də olmasını istədilər. Tamaşanı hazırlayanlar, teatr kollektivi "Təşəkkürnamə" ilə təltif olundular və onlara hədiyyələr təqdim olundu. Demek ki , bu tədbir lazımlı tədbir imiş.



**Yeni Balakən**

"Külə dönmüş arzular" tamaşası
Quruluşçu rejissor- Zöhrə Bakeyeva
Rollarda:
Qurban------Mikayılov Vüqar
Ata------------Sərkərov Rasim
Ana-----------Qurbanova Kəmalə
İblis-----------Nəbiyev Rafael
Şahin---------Yüzbaşıyev Zamin
Cahan--------Çukayeva Mədinə
Mətanət------Əhmədiyeva Xacay
Qaniçən-----Qarayev Hikmət



# Mülki prosessual qanunvericilikdə prokurorun iştirakı

Azərbaycan Respublikasının sahəvi qanunvericiliyində prokurorun mülki prosesdə iştirakı nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsi Azərbaycan Respublikasının prokurorluğunun qanunla nəzərdə tutulmuş hallarda və qaydada qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işi başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının qanunun 2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sistemində daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokururuna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır. Prokurorun mülki prosesdə iştirakı "Prokurorluq haqqında" Azərbaycan Respublikasının qanunu və mülki prosessual məcəllə ilə tənzimlənir.

Mülki Prosessual Hüquq ədəbiyyatına nəzər saldıqda "Başqa şəxslərin hüquqlarını və dövlət mənafelərini müdafiə etmək üçün məhkəməyə müraciət etmə və dövlət orqanlarının və yerli özünüidarə orqanlarının rəy vermək üçün prosesdə iştirakı" nəzərdə tutulub. Yeni prosessual məcəllənin qəbuluna qədər prokurorun mülki prosesdə iştirakı iki məqsəd daşıyırdı.

1. Məhkəmələrin vəzifələrin, şəxslərin və məhkəmə icraatının digər iştirakçılarının fəaliyyətindəki hüquq pozuntularının aşkar edilməsi.

2. Aşkar edilmiş hüquq pozuntularının qanunla nəzərdə tutulmuş hallarda və qaydalarda kənarlaşdırılması.

Bu məqsədlər prokurora mülki proseslərdə məhkəmənin fəaliyyətinə nəzarətetmə səlahiyyətini uyğunlaşdırırdı. Bu səlahiyyətlərə görə mülki işlər üzrə məhkəmə islahatının, məhkəmə çıxışları qismində prokuror rəyi deyilən bir hissə mövcud idi. 1965-ci il Azərbaycan SSR Mülki Prosessual Məcəllənin 12-ci maddəsinə nəzər salsaq həmin dövrdə SSR İttifaqı və müttəfiq respublikaların mülki mühakimə üsülü Əsaslarının 14-cü maddəsinə uyğun olaraq, SSR İttifaqı, müttəfiq və muxtar respublika qanunlarının mülki mühakimə üsulunda dürüst icrası üzərində nəzarət bilavasitə SSRİ Baş Prokuroru tərəfindən, eləcə də Azərbaycan SSR Prokuroru və ona tabe olan sair prokurorlar tərəfindən həyata keçirilir.

Prokuror mülki mühakimə icraatının bütün mərhələlərində, kim tərəfindən olursa-olsun, baş vermiş hər cür qanun pozuntusunun aradan qaldırılması üçün vaxtında qanunla nəzərdə-tutulan tədbirlər görməlidir.

Prokuror mülki mühakimə icraatında öz səlahiyyətini heç bir orqandan və vəzifəli şəxsdən asılı olmadan, yalnız qanuna tabe olaraq və SSRİ Baş Prokurorunun göstərişlərini rəhbər tutaraq həyata keçirir.

Prokuror baxılan işlə bağlı məhkəmənin fəaliyyəti barədə öz mülahizələrini bildirir və bu hissə imperativ hissə hesab olunurdu.

Yeni mülki prosessual məcəllənin və məhkəmə islahatlarının keçirilməsi mülki prosessual qanunvericiliyə dəyişikliklərin edilməsi ilə əlaqədar olaraq məhkəmə hakimiyyətinin bir qolu olmaq etibarı ilə tam müstəqil heç kimdən asılı olmayan iş çəkişmə icraatında fəaliyyət göstərən məhkəmə sisteminin yaranması ilə prokurorun mülki prosesdə iştirakı yalnız dövlət mənafelərinin müdafiəsi ilə əlaqədar olaraq məhkəmədə iddia qaldırmaq istiqamətində "Prokurorluq haqqında" qanunun 26-cı maddəsinə istinadən müəyyənləşdirilmişdir. Prokurorun iştirak etdiyi işlərin dairəsi Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində müəyyən edilmişdir. Prokurorun bu istiqamətdə iştirakı Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 50.2-ci maddəsində nəzərdə tutulub. Maddəyə əsasən özünün və başqasının mənafeyi naminə iddia qaldırılmış fiziki və hüquqi şəxslər, habelə dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokuror iddiaçılar hesab olunur. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin kommentariyasına əsasən fiziki və hüquqi şəxslər, o cümlədən prokuror məhkəməyə ərizə ilə öz maraqlarının müdafiəsi məqsədi ilə yox, başqa şəxslərin hüquqlarının və qanunla qorunan mənafeləri üçün müraciət edirlər. Onlar məhkəməyə ərizə ilə müraciət etdikdə maddi-hüquqi mənada deyil prosessual hüquqi mənada iddiaçı olurlar. Şərh olunan maddənin göstərişinə görə onlar hətta mülki məcəllənin 64.6-cı maddəsinə əsasən "dövlət orqanları və yerli özünüidarə orqanları təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçıları" kimi məhkəmədə iddia qaldıra bilərlər. Hətta maddələrdə belə bir müraciət olmadan prokurorun öz təşəbbüsü ilə iddia qaldırmaq hüququ vardır. Bu isə yeni prosessual məcəllənin əvvəlki prosessual məcəllədən fərqləndirən əsas amildir. Mülki prosessual məcəllənin 50.2-ci maddəsində nəzərdə tutulan iddia ərizəsi ilə maraqların müdafiə məsələsi yox, şəxslərin dövlət idarəsi və təşkilatların hüquq və qanunla qorunan mənafelərin müdafiəsi məqsədi ilə məhkəmənin baxdığı mübahisəli məsələnin maddi münasibətlərin birbaşa subyekti deyil, o zaman prosessual mənada iddiaçı hesab olunur. İddiaçılar nəzərdə tutulan bəzi istisnalarla (barışıq sazişi istisna olmaqla) iddiaçının bütün prosessual hüquqlarından istifadə edirlər və vəzifələrini daşıyırlar. Bundan əlavə qeyd etmək olar ki, təkcə Azərbaycan Respublikasının qanunvericiliyində deyil, Roman-German hüquq sisteminə daxil olan digər dövlətlərdə də prokurorun mülki prosesdən iştirakı nəzərdə tutulur. Türkiyə Respublikasının "Hukuk Muhakimelerin Kanunu"nun 70-ci maddəsinə əsasən prokuror qanunla nəzərdə tutulmuş hallarda mülki iddia qaldırır və ya qaldırılmış mülki iddiada tərəf kimi iştirak edir. Rəsmi orqanın xəbərdarlığına baxmayaraq, prokuror iddia qaldırmazsa, xəbərdarlıq edən dövlət orqanı prokurorun tabeliyində fəaliyyət göstərən cəzaçəkmə müəssisəsinə ən yaxın olan birinci instansiya məhkəməsinin hakiminə şikayət verə bilər. Bununla bağlı şikayət 12.04.2004-cü il tarixli, 5271 nömrəli Cinayət-Prosessual Məcəllənin 172 və 173-cü maddələrinə uyğun olaraq tətbiq edilir. Tərəflər prokurorun iştirak etdiyi işlərə və məsələlərə sərbəst şəkildə baxa bilməzlər. Rusiya Federasiyasının Mülki Prosessual Məcəlləsinin 45-ci maddəsinə əsasən prokurorun işdə iştirakı nəzərdə tutulur və prokuror vətəndaşların, Rusiya Federasiyasının



qeyri-müəyyən sayda şəxslərinin və ya mənafelərinin, Rusiya Federasiyasının təsis qurumlarının və bələdiyyələrin hüquqlarının, azadlıqlarını və qanuni mənafelərini müdafiə etmək üçün məhkəməyə müraciət etmək hüququna malikdir. Vətəndaşın hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini müdafiə etmək üçün ərizəni prokuror yalnız o halda verə bilər ki, vətəndaş səhhətinə, yaşına, iş qabiliyyətinə və digər üzrlü səbəblərə görə özü məhkəməyə müraciət edə bilməsin. Göstərilən məhdudiyyət prokurorun ərizəsinə şamil edilmir. Bunun səbəbi isə vətəndaşların əmək (xidmət) münasibətləri və digər münasibətlər sahəsində pozulmuş və ya mübahisəli sosial hüquqlarının, azadlıqları və qanuni mənafelərin müdafiəsi, həmçinin birbaşa onlarla əlaqəli olan ailənin, analığın, atalığın və uşaqlığın qorunması; sosial müdafiə, o cümlədən sosial təminat; dövlət və bələdiyyə mənzil fondlarında mənzil hüququnun təmin edilməsi; sağlamlığın qorunması, o cümlədən tibbi xidmət; əlverişli ətraf mühit hüququnun təmin edilməsi; təhsil və s. problemlərə görə ona müraciət etməsidir.

Ərizə vermiş prokuror barışıq sazişi bağlamaq hüququ və məhkəmə xərclərini ödəmək öhdəliyi istisna olmaqla, bütün prosessual hüquqlarından istifadə edir və iddiaçının bütün prosessual vəzifələrini daşıyır. Prokuror başqa bir şəxsin qanuni mənafelərinin müdafiəsi üçün verilmiş ərizədən imtina edərsə, həmin şəxs və ya onun qanuni nümayəndəsi iddiadan imtina etmədiyi təqdirdə işin mahiyyəti üzrə baxılması davam edir. İddiaçı iddiadan imtina etdikdə, məhkəmə qanuna zidd olmadıqda və ya başqalarının hüquqlarını və qanuni mənafelərini pozmadıqda məhkəmə işə xitam verir. Bu isə Federal Qanunun 05.04.2009 N 43-F3 nəşrində öz əksini tapır.

Dövlət idarəetmə mexanizminin tərkib hissəsi kimi prokurorluğun əsası ilk dəfə XIV əsrin əvvəllərində Fransadan IV Flipp tərəfindən qoyulsa da hal-hazırda Fransa qanunvericiliyində də prokurorun mülki proses və digər sahələrdə iştirakı nəzərdə tutulur.

Anqlo-Sakson hüquq qanunvericiliyinin əks olunduğu ölkələrə nəzər saldıqda isə, onlarda mülki prosessual məcəllədə prokurorun fəaliyyəti tənzimlənmir və qanunvericilik qüvvədə olan normaya əsasən tənzimlənir.

Azərbaycan Respublikasında iddia icraatından başqa prokuror mülki məhkəmə icraatının digər növü olan xüsusi icraatlı işləri də qaldırmaq hüququna malikdir. Belə ki, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 306.3-cü maddəsinə görə Dövlət idarə və təşkilatlarının və ya təsisçiləri dövlət və ya dövlət idarələri, yaxud təşkilatları olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu halda dövlət mənafeyinin müdafiəsi üçün prokuror iki iş üzrə ərizə verə bilər.

1. Mülkiyyət hüququ üzrə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək haqqında işlər üzrə.

2. Daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında işlər üzrə.

Prokurorun mülki prosesdə iştirakı birinci instansiya məhkəmələrində iştirak etməklə məhdudlaşmır. Məhkəmə qərarlarının və qanunvericiliyin yoxlanması üzrə məhkəmələrdə protest verərək apellyasiya və kasassiya məhkəmələrində iddia qaldıraraq iddiaçı kimi çıxış edə bilir. Bu məsələlər bağlı mübahisələr Azərbaycan Respublikasının Ali Məhkəməsinin plenium qərarlarında öz əksini tapır. Hal-hazırda Azərbaycan Respublikasının Milli Məclisinin qanun layihəsində prokurorun mülki prosesdə iştirakı ilə bağlı qanun layihəsi öz əksini tapmadqdadır və prokurorun səlahiyyətlərinin mülki proseslə bağlı daha da genişləndirilməsi aktual məsələlərdəndir.

**Samirə Kazımlı**
**Balakən rayon Prokurorluğunun müstəntiqi**

# Balakəndə şəhidlərin xatirəsinə həsr olunmuş boks turniri

Bu gün Balakən Olimpiya İdman Kompleksində 1-ci və 2-ci Qarabağ, Vətən Müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş respublika səviyyəli boks turnirinə start verildi,yarışlar başladı.Turnirdə 12 rayon və şəhərdən 15 komandada 130 idmançı qələbə uğrunda güclərini sınayacaqlar. Yarışları beynəlxalq dərəcəli hakimlər idarə edir.Tədbirdə Balakən RİH-dən, Gənclər və İdman idarəsindən nümayəndələr,şəhid ailələri və digər qonaqlar iştirak edirdilər. Dövlət Himni və şəhidlərin xatirəsinə bir dəqiqəlik sükutla başlayan tədbiri Gənclər və İdman İdarəsindən Səfər Gəncəyev giriş sözü ilə açaraq növbə ilə qonaqlara söz verdi. Tədbirdə Balakən RİH-dən Ağa Ağayev, Hacı Muradov, QHT-dən Sərvan Şibliyev, şəhid atası Fazil Rəşidov çıxış edərək şəhidlərimizin ruhuna, xatirəsinə belə ehtiram və diqqət üçün təşkilatçılara, əməyi keçənlərə təşəkkür edərək





idmanın vacibliyindən, idman vasitəsilə Azərbaycan bayrağının zirvələrə ucaldılmasından, yüksəklərdə dalğandırılmasından danışdılar. Turnir iştirakçılarına qələbə, uğurlar arzuladılar. Tədbirin, turnirin təşkilatçısı Balakəndə fəaliyyət göstərən "Balakən Boks Klubu"dur. Balakən Boks Klubunun təsisçisi və rəhbəri Ruslan Huseynovdur. Bakı və Gəncə komandalarının boksçuları ringə çıxaraq turnirin ilk görüşünə başladılar. Sıraca 4-cü olan görüşdə rin- gə çıxan Balakən Boks klubunun idmançısı Azad Abdullayev əzmlə mübarizə apararaq və hakimlərin yekdil qərarı ilə görüşün qalibi elan edildi. Balakən ilk görüşünə qələbə ilə başladı.

Müxtəlif çəki dərəcələrində mübarizə aparan qaliblər medal və diplomlarla təltif olunacaqlar.Turnir sabah da davam edəcək.

**Yeni Balakən**



# "Böyük zəfərə gedən yolun son addımları"

12 iyul 2025-ci il tarixdə Balakən rayon Mədəniyyət Mərkəzində Tovuz döyüşlərinin ildönümü münasibətilə "Böyük zəfərə gedən yolun son addımları" başlığı altında Qarabağ müharibəsi qaziləri və iştirakçıları ilə görüş keçirildi. Dövlət himninin səsləndirilməsi və şəhidlərimizi bir dəqiqəlik sükutla anma ilə başlayan tədbirdə QHT-dən Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi, Cavanşir İsmayılov, Əsgər Ailəsi İctimai Birliyinin Balakən rayon filialı, Nəfisət Vahid, Xocalı Soyqırımını dünyaya tanıtma cəmiyyəti, Şaban Daşdəmirov, II Qarabağ müharibəsinin qaziləri Məhəmməd İsayev, Pərviz Urkayev, şəhid ailələri, yazıçı Sədulla Şirin, mədəniyyət müəssisələrinin nümayəndələri və vətənpərvər ziyalılar iştirak edirdi.

Tədbiri giriş sözü ilə Balakən rayon Mədəniyyət Mərkəzinin direktoru Arzu Ocaxverdiyev açaraq, Tovuz döyüşlərinin Azərbaycan tarixində oynadığı roldan, xalqımızın Vətən sevgisindən və bu döyüşlərin milli birliyin daha da möhkəmlənməsindəki əhəmiyyətindən danışıb.

Tədbir iştirakçıları qəhrəman şəhidlərimizi anaraq, Tovuz döyüşlərinin Vətən müharibəsinə gedən yolda xalqın birliyini və qətiyyətini necə gücləndirdiyini vurğuladılar.

Tədbirin məqsədi - 2020-ci il iyul ayında baş verən Tovuz döyüşlərinin tarixi əhəmiyyətini bir daha xatırlatmaq, həmin döyüşlərdə nümayiş olunan milli ruhun, xalq-dövlət birliyinin sonrakı zəfərə - 44 günlük Vətən müharibəsində qazanılan qələbəyə necə yol açdığını vurğulamaq idi.

**Yeni Balakən**

# Balanslı təhsil və Peşəkar kadr



Müasir dövrdə ali təhsil müəssisələrində tələbələrin imtahanlarda yüksək nəticələr əldə etməsi onların bilik səviyyəsinin göstəricisi kimi qəbul edilir. Lakin təcrübə göstərir ki, bir çox hallarda tələbə imtahanda yüksək bal toplasa da, eyni mövzu üzrə bir müddət sonra sual verildikdə "bilirəm, amma izah edə bilmirəm" cavabını verir. Bu vəziyyət təhsildə əzbərləmənin, amma dərk etmənin olmadığını göstərir.

Araşdırmalar və müşahidələr göstərir ki, bu problemin əsas səbəblərindən biri bəzi dərs vəsaitlərinin və mühazirə materiallarının tərcümə olunmuş, yəni orijinal düşüncə tərzindən uzaq və tələbəyə yad formada təqdim olunmasıdır. Nəticədə bəzi tələbələr mövzunu anlayışla deyil, əzbərləmə ilə mənimsəyir və qısa müddətli hafizədə saxladığı məlumatı tətbiq edə bilmir. Bu hal bütün universitetlərə aid edilməsə də, əhəmiyyətli sayda ali təhsil müəssisələrində müşahidə olunur və təhsilin səmərəliliyinə təsir edən əsas faktorlardan biri kimi qiymətləndirilir.

Əslində, tələbə evdən çıxaraq tələbə həyatına qədəm qoyur, məqsədi bir mütəxəssis olaraq yetişmək və gələcəkdə peşəkar işçi kimi cəmiyyətə fayda verməkdir. Bu yol isə daha ali məktəbə qəbul zamanı ixtisas seçimi ilə başlayır. Lakin bəzən şagirdin maraq dairəsi dinlənilmədən, araşdırılmadan, sadəcə topladığı bala uyğun olaraq ixtisas seçilir. Nəticədə illər sonra həmin gənc anlayır ki, ya maraq dairəsində olmayan bir ixtisas üzrə təhsil alıb, ya da müasir dövrün tələblərinə uyğun gəlməyən, perspektivsiz bir sahəyə yönəlib.

Halbuki müasir texnologiya və informasiya dövrü tələb edir ki, istənilən sahədə qərar verilərkən daha dərindən araşdırma aparılsın, şagirdlərin maraq və potensialı nəzərə alınsın. Əgər bir gənc gələcəkdə peşəkar kadr olaraq yetişmək və çalışacağı müəssisədə daha məhsuldar olmaq istəyirsə, bu prosesin ilk şərti onun ÖZ İŞİNİN VURĞUNU olmasıdır. Sevdiyi, maraq duyduğu sahədə təhsil alan tələbə həm dərsi daha yaxşı anlayır, həm də gələcəkdə yüksək peşəkarlığa daha tez çatır.

Müasir dövrdə isə iş tapmaq bəziləri üçün olduqca rahat, digərləri üçün isə ən ağır və dəhşətli bir mərhələyə çevrilib. Universitet illərində ixtisasını dərindən öyrənən, psixologiya biliyinə malik olan, ünsiyyət bacarıqları zəngin, müasir texnologiyalara açıq, xarici dil biliklərinə sahib və bütün bunlarla yanaşı, networkingi - yəni əlaqələr şəbəkəsi - geniş olan bir tələbənin işsiz qalmaq ehtimalı çox aşağıdır. Əks halda, bu xüsusiyyətlərdən məhrum olan bir gənc üçün iş tapmaq prosesi həm psixoloji, həm də praktiki baxımdan çox çətin olur.

**Nəriman İbrahimov**
**"Turan Tədris Mərkəzi"**

# Tovuz döyüşləri - "Böyük Zəfərə Gedən Yolun Son Addımları"



12 iyul 2025-ci il tarixində Balakən Rayon Mərkəzi Xəstəxanasında Tovuz döyüşlərinin ildönümü münasibətilə "Böyük Zəfərə Gedən Yolun Son Addımları" adlı anım tədbiri keçirildi.

Tədbirdə xəstəxananın tibb heyəti, Qarabağ müharibəsi iştirakçıları, qazilər və digər qonaqlar iştirak etdilər. Dövlət Himni və şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükut ilə anmayla başlayan tədbiri giriş sözü ilə açan Balakən Rayon Mərkəzi Xəstəxanasının direktoru Dilbər Quliyeva 2020-ci il iyulun 12-də Tovuz istiqamətində baş vermiş



döyüşlərdə qəhrəmancasına şəhid olmuş Vətən övladları, general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər şəhidlərimizin misilsiz igidliyindən bəhs etdi. O, bu qəhrəmanların göstərdiyi şücaətin xalqımızın yaddaşında daim yaşayacağını vurğuladı.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Aydın Abdullayev və digər veteranlar çıxış edərək Balakən Rayon Mərkəzi Xəstəxanasının tibb işçilərinə Vətən müharibəsi dövründə və sonrakı illərdə göstərdikləri peşəkarlıq və vətənpərvərlik mövqeyinə görə təşəkkürlərini bildirdilər.

Sonda veteranlar tərəfindən tibb işçilərinə fəxri fərmanlar təqdim olundu.

**Yeni Balakən**

# "Mənim oğlum qəhrəmandır"



15.07.2025-ci il tarixində Yeni Şərif kənd Sənətkarlıq Evində ərazimizin işğaldan azad olunması uğrunda şəhid olmuş igidlərimizin əziz xatirəsinə həsr olunmuş "Mənim oğlum qəhrəmandır " başlığı altında ədəbi-bədii gecə keçirilib.

Tədbirdə I və II Qarabağ müharibnəsinin şəhid ailələri, qazilər, Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin Balakən rayon üzrə baş məsləhətçisi, Mədəniyyət Mərkəzinin əməkdaşları, qonşu kənd mədəniyyət müəssisələrinin əməkdaşları, ziyalılar, yazıçı publisistlər, məktəblilər və kənd sakinləri iştirak edib.

Tədbirdə çıxış edənlər Vətən uğrunda canlarından keçmiş igid övladlarımızın qəhrəmanlığından, onların keçdiyi şərəfli döyüş yolundan bəhs edib, şəhid ailələrinin göstərdiyi fədakarlığı yüksək dəyərləndiriblər.

Ədəbi-bədii gecədə şəhidlərə həsr olunmuş şeir kompozisiyası, vətənpərvərlik ruhunda mahnılar, səhnəciklər və rəqslər təqdim olunub. Səhnədə ifa olunan hər bir nömrə tamaşaçılar tərəfindən böyük duyğular və alqışlarla qarşılanıb.

Tədbirin sonunda şəhid ailələri ilə birgə xatirə şəkli çəkilib.

**Zöhrə Bekayeva**

# BALACALAR ÜÇÜN YAY MƏKTƏBİ -"PÖHRƏ"



İyun ayının 15-dən etibarən, "Pöhrə" Təlim və İnkişaf Mərkəzində yay məktəbi fəaliyyətə başlamışdır. Həftənin beş günü,saat 09:00-dan 17:00-dək fəaliyyət göstərən Yay məktəbində gimnastika, informatika, ingilis və rus dili dərsləri, riyaziyyat, məntiq dərsləri,musiqi dərsləri, müxtəlif master klasslar keçirilir. Balanslı idman və gimnastika, informatika və digər fənlər ixtisaslı müəllimlər tərəfindən keçirilir. Uşaqlar üçün maraqlı yay əyləncələri təşkil olunur. Bu gün də həmən əyləncələrdən biri keçirildi. Uşaqlar üçün dondurma festivalı təşkil olunmuşdu. Uşaqlar bu festivalda çox əyləndilər, özləri müxtəlif meyvəli dondurmalar hazırladılar. Onlara alış-veriş mədəniyyətilə yanaşı çoxluq olan zaman növbədə dayanmaq qaydaları öyrədildi. Balacalar növbə ilə gah satıcı, gah da alıcı olurdular. Mədəni şəkildə müraciət etməyi, sonda isə təşəkkür etməyi öyrənirdilər. Dünən də master klass proqramında kap keklər hazırlamışdılar. "Pöhrədəki" müəllimlərinin sayəsində balacaların o məkanda yaratdığı bu abı-havanı gördükdə sanki dünyanın ən mədəni, inkişaf etmiş, yüksək sivilizasiyaya malik ölkəsinin kiçicik bir şəhərciyində hiss edirsən özünü.

Uşaqlar gündəlik müxtəlif fəaliyyətlərlə məşğul olur, günləri maraqlı, faydalı keçirirlər, eyni zamanda onlar yay tapşırıqlarını yerinə yetirir,hər uşaq öz sinfinə uyğun dərs materialları ilə məşğul olur, bilikləri təkrarlanır, ibtidai sinif təkmilləşdirmə aparılır, onları növbəti dərs ilinə hazırlayırlar. Bununla yanaşı maraqlı ekskursiyalar təşkil olunur, gəzintiyə çıxırlar. Gün ərzində üç dəfə orqanik (təbii) qida (yemək) ilə təmin olunurlar.

"Pöhrə" Təlim və İnkişaf Mərkəzi sözün həqiqi mənasında yüksək xidmət göstərir.Övladını etibarlı əllərə və arzularına əmanət edir,onu gözəl gələcəyə aparan yola salırsan, hər səhər..

**Ramazan Abal**


MƏSUL REDAKTOR:
Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100